# Aləm Kəngərlinin “Qatarda 18 əhvalat”ı...

*“Həyatdakı insanlar sırf yaxşı və pis adamlardan ibarət deyil. Biz hamımız yaxşılığa meylli olsaq, inanın ki, mənəvi deqradasiyaya son qoya bilərik”*

***Aləm Kəngərli***

Ədəbiyyat dünənin aynasında bu günü görmək və sabahı bədii dillə göstərməkdir. Sabahı isə yazarın işığı ilə görürük. Sabaha gedən yolu yazar daşdan-kəsəkdən elə təmizləməlidir ki, gələn nəsil o yolla addımlayanda büdrəməsin. Əgər dünyamız bu günə qədər ali hissləri - sevgini, sayğını, insanlığı özündə saxlamağı bacarıbsa, bunun üçün ədəbiyyata, incəsənətə borcluyuq. Elm-texnika əsrində şeir, mahnı, rəsm yazan, yazdıqca sevən, sevilənlər varsa, deməli, dünya boşuna fırlanmır, deməli insanlıq yaşayır. Ürəyində sevgi bəsləyən, böyüdən birisi bütün pisliklərdən uzaq olar, ən çoxu, zamana, məkana, özünə asi çıxar... şeir, mahnı, roman, rəsm ... yazar... Təki belə asilərdən xali olmasın dünya! Sizə bir kitabdan söz açacağam: Aləm Kəngərlinin “Qatarda 18 əhvalat” adlı hekayələr toplusundan.

“Qatarda 18 əhvalat” (“Qanun nəşriyyatı” 222 səh) 18 hekayədən ibarətdir. Kitabın başqa kitablardan ilk nəzərə çarpan fərqi, hər bir hekayənin proloqunda süjet xəttinə (hadisələri bir yerə cəmləşdirərək, xarakterlərin bədii portretini çəkmək) fərqli yanaşmasıdır. Təhkiyəçi oxucunu əsəri ilə təkbətək qoymur, özü oxucu ilə üzbəüz oturaraq, əsərin incəliyinə varır. Bu, oxunacaq əsərə hazırlıq məqsədiylə olsa da, dinləyiciyə (oxucuda) qarşıdakı hadisələrin (hekayələrin) daha maraqlı olacağı proqnozunu verir və diqqəti birbaşa hekayəyə yönləndirir.

Kitabda ən çox sevdiyim “Missiya” adlı hekayə ilə söhbətimə başlamaq istəyirəm. Sokrat deyir ki: “Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz”. “Missiya” da Aləm Kəngərli müəllim əməyinə olan ölçüsüz dəyərini məzmunlaşdırıb. O, Sevil müəllim obrazında bütün həqiqi müəllim adını daşıyanlara bu hekayə ilə minnətdarlığını bildirir.

Əsərin qəhrəmanı Sevil müəllimin bədii portretinə nəzər saldıqca, oxucunun qəlbi fərəhlə dolur, öz öyrətmənlərini xatırlayır. Bu əsəri oxuduqca sevimli müəllimlərim: Qərənfil müəllim, İsa müəllim, Firad müəllim... Sevil müəllim şəklində sətirlərin arasından boylandı mənə. Və bu məmnuniyyət dolu nostalji hisslərə kökləndikcə, müəllifə minnətdarlığım gücləndi.

Sevil müəllim öz işini sevir, şagirdlərini sevir, ölkəsini sevir, Vətəninin gələcəyini düşünür və üzərinə düşən missiyanı vicdanının qəlibində cilalayaraq həyata keçirir. Dərsi buraxan ən qabaqcıl şagirdinin taleyi onu o qədər narahat edir ki, hətta: “Əşi, bəsdir də, bezdim daha, sən bu xarabaya bir gün vaxtında gələcəksən, ya yox?! Qabağıma qoyacağın bir tikə çörəyi də zəhərə döndərirsən. O məktəbdə səndən başqa da müəllim yoxdu?! Bu uşaqların qayğısını çəkmək təkcə sənəmi qalıb?! Bəsdir qapıları gəzdin! Qurtar bu oyunu! Qurtar! Başa düşdün məni?” deyən ərinə də məhəl qoymadan öz missiyasından qalmır. Bu epizodda ərinin danlaq dolu sözləri əslində Sevil müəllimi oxucu gözündə pillə-pillə qaldırır. Bu hirsli sözlərdə qəhrəmanın iç üzü tam açıqlığı ilə görüntülənir. Vəzifə və vicdani borcunu layiqincə yerinə yetirən hər bir insan kimi Sevil müəllim də: “...Bir ailəni dağılmaqdan, iki gül balanın da dağıntıların altında qalmasından xilas edəcəyinə əmin idi”.




“Qəfil görüş”ün adı əsər barədə ilk məlumatı verir. Hekayədə uzun illər bir-birindən ayrı düşən sevgililərin - Taleh və Könülün qəfil görüşündən söz açılır. Əsərin girişi baharın gəlişini bədii bir dildə oxuculara çatdırır: “Sanki quşlar həmişəkindən daha canfəşanlıqla cəh-cəh vururdular. Səhər yenicə açılırdı. Taleh pəncərənin şüşəsində oynaşan yaz günəşinin işartılarını görüb ehmalca yerindən qalxdı”. Bu ekspozisiya nəsrdə təcrübəsi olan müəllifin əsərindən xəbər verir. Müəllif sadə və bitkin şəkildə oxucuda təbiət təsviri yaradır və bundan sonra əsərin qəhrəmanı Talehlə tanış oluruq: O qəfil görüşdə Taleh: “...qayğılı gözləri ilə Könülə iki metrlik məsafədən deyil, sanki on illik tarixi olan şirin xatirələrlə dolu uzaq keçmişdən baxırdı”. Onlar ayrılsalar da, Könül Talehi sevir, Taleh də Könülü sevir(?)!

Taleh səhhəti ilə əlaqədar həkim qəbuluna gedir və bu həkim illərin o tayında qalan sevgisi Könüldür. Lakin Talehin Könülə: “Vallah, yazıya-zada fikir verməmişəm (həkimin qapısına yazılan ada. İ. A), bilsəydim burada işləyirsən, qayıdıb gedərdim”, deyərək, oxucuda Talehə qarşı ikrah oyadır. Düşünürsən, necə olur ki, illərin keçməsinə baxmayaraq qadının sevdiyi, cəsarətlə yaxınlaşdığı bir kişi bu qədər laqeyd olsun?.. Bu laqeydliyi oxucu dərk etdikcə, qadına olan sevgi öləziməyə başlayır. Bütün bunlar isə hekayənin ritmdən düşməməyinə zəmin yaradır.

“Qəfil görüş” zamanımızla ayaqlaşmağı bacarır - hadisələr gözlənildiyindən tez cərəyan edir. Necə ki, texnika əsrinin adamları səbirsiz, hövsələsiz, tələskəndir, eləcə də hekayədəki hadisələr qabaqdan gəlir. Şəxsən mən, bir qadın olaraq, hekayənin qadın qəhrəmanının əməlini atmasını birmənalı qəbul etmədim. Talehin bir an öncə Könülün otağından çıxıb getmək cəhdinə rəğmən Könül deyir: “Taleh, əgər gerçəkdən məni sevirsənsə, çəkdiyim əzabları bir an mənə unutdur”. Əsərin bu yerində özümə sual verirəm, belə qadınmı olar? Ər bir aylıq da olsa, harasa gedib dönən zaman heç bir qadın bu qədər cəsarətlə ərinə söz deyə bilməz. Hər ayrılıq sonrası qadın sevdiyi kişi ilə ilk dəfə görüşürmüş kimi görüşür, utancaq, titrəyə-titrəyə... Belə məqamları hekayədə qəbul etməsəm də, əsərin daha çox görünməyən tərəflərindəki reallığa heyran qalıram. Talehlə Könülün qarşılaşması onu göstərir ki, qadınlar sevən zaman kişilərə nisbətdə daha cəsarətlidir. Və müəllif bu bir epizodlu hekayə ilə acımasızca oxuculara mesaj verir: bütün platonik hisslər reallığın ayaqları altındadır, reallıq istəsə onu əzər, istəsə başa çıxarar. Və o hisssiz, duyğusuz reallıq adətən xəyalları tapdalamağı, əzməyi sevir. Necə ki, Könülün illərlə qoruyub saxladığı ilahi sevgisi Talehin qapını örtüb getməyi ilə əzildi...

“Qaş düzəldən yerdə” satirik bir hekayədir. Burada müəllif acı bir yumorla zamanımızdakı eybəcərliklərdən söz açır, böyük iş adamı Cəbrayıl müəllimlə sadə, kasıb ailənin başçısı Bəhlul kişini qabaqlaşdırır. Bu qabaqlaşmanı maraqlı bədii priyomlarla qələmə alan müəllif, təkcə bu iki nəfərin deyil, onların həyat yoldaşlarının da sosial şəraitlərinə, zamanlarına, məkanlarına necə bənzədiyini məharətlə göstərir.

“Seçim”, “Kupedə” və “Ənənə” hekayələrində müəllif oxuculara “iş və eşi kəndin seçməlisən və zamanında” ismarışını verir. “Seçim”də zamanında evlənməyən əsərin qəhrəmanı Nicatın başına gələnlər yumoristik bir şəkildə qələmə alınıb.

“O olmasın, bu olsun”, “Sanatoriyada” hekayələri gender bərabərliyini pozan kişilərin iç üzünü göstərir. “Sanatoriyada” adlı hekayədə uzun illər işinə və evinə bağlı olan Həsən kişinin timsalında başqa kişilərin iç üzü açılır. Müəllif mərhələylə oxucunu əsərə elə adekvat edir ki, oxucu əsərdəki zamanı, məkanı, hadisələri, insanları görür, zaman və məkanda baş verənləri addım-addım çözür və hər epizodda özü əsərin qəhrəmanı olur. Yəni bədii əsər reportaj incəliklərinin ştrixlərinə də varır: gəzdirir, maarifləndirir, həyəcanlandırır...

“Oğru”, “Qayda”, “Velosiped sevdası”, “Dilənçi”, “İkili yanaşma” hekayələri də müəllifin bədii bir dillə zamana baxışı və oxucuya aşılayacağı dəyərli həyat normaları ilə yazılan əsərlərdəndir. “İkili yanaşma”da qələm adamlarının - doğrunu yazan, həqiqəti göstərən, halal əməyi ilə yaşamağa üstünlük verənlərin savadsız məmurların gülüş obyekti olduğunu və qarşılaşdığı çətinlikləri göstərir.

“Səninləyəm” hekayəsində sufizm elementləri nəzərə çarpır. Burada müəllif Murad obrazını o qədər kamil yaradıb ki, ali təhsilli, intellektli, müasir düşüncəli bir gəncin, əslində maddi aləmdə gözünün olmadığını, insanlara olan təmənnasız münasibətini, ali varlığın cisimdən deyil, iç dünyasını işıqlandıran zərrələrdən ibarət olduğunu göstərir. Əsərin razvyazkasında Muradın tələbə yoldaşı Zümrüdə olan ilahi sevgisinin pərdələri açılır. Murad Zümrüdün fiziki qüsuruna yox, mənəvi kamilliyinə aşiqdır və bu eşq hekayənin finalında Tanrıya yüksəlir...

On dördüncü əhvalatın proloqunda müəllif yazır: “33 il sonra” hekayəsindən başqa yerdə qalan bütün hekayələrimin qəhrəmanları uydurma deyil, həyatdan götürülmədir. Onların az qala hamısının həyatda prototipi var”. Əlbəttə, yazıçı zamanını yazır ilk növbədə və müəllifin oxucunu inandırmaq məharəti zamandakı insanların (oyunçuların, personajların, obrazların) nə dərəcədə həqiqi olmasından asılıdır. Bu həqiqət nə qədər qabarıqdırsa, təxəyyül süzgəcindən keçən əsər o qədər canlı olacaq. Bütün bunlara rəğmən müəllif “33 il sonra” fantastik hekayəsindəki robortlara da maraq oyatmağı bacarır, sürətlə inkişaf edən XXI əsrin ən böyük kəşfi robortların 33 il sonra bütün sahələrdə insanlığı geridə qoyacağına inandırır. “33 il sonra” hekayəsi həm də onu göstərdi ki, Aləm Kəngərli ədəbiyyatın çox az rast gəlinən janrında - fantastik ədəbiyyatda da qələmini uğurla sınamışdır.

Kitabın epiloqunda müəllif yazır: “İnşallah, gələcəkdə sizi digər qəhrəmanlarımla da tanış edəcəyəm. Onlar da bu 18 hekayədə tanış olduğunuz qəhrəmanlarım kimi müsbət və mənfi ampuladadırlar. Həyatdakı insanlar sırf yaxşı və pis adamlardan ibarət deyil axı. Amma biz hamımız yaxşılığa meylli olsaq inanın ki, mənəvi deqradasiyaya son qoya bilərik”.

İnsanları mənəvi deqradasiyadan qorumaq yolunu özünə missiya edən müəllifə yeni-yeni əsərlər arzulayır, yolunuz işıqlı yoldur, işığınız sönməsin, deyirəm!

**İradə Aytel**